Respublika.- 2024.- 13 mart, № 56.



# Şanlı Qələbəyə həsr edilən kitab Çin dilində nəşr edilib

**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətinin məlumatına görə, "Regional İnkişaf" İctimai Birliyi və Bakı Kitab Mərkəzinin birgə təşkilatçılığı ilə 7 dildə nəşr olunan "Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru" kitabının təqdimat mərasimi keçirilib. Tədbirin əsas məqsədi bu kitab vasitəsilə gənc nəslə tarixi həqiqətlərin dolğun və ətraflı çatdırılması və onun geniş təbliğidir. Birliyin könüllüləri, fəal gənclər, Bakıda təhsil alan çinli tələbələr, müharibə veteranları, qazilər, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə kitabın Çin dilindəki nəşri təqdim olunub.**




Tədbirin əvvəlində 44 günlük savaşda əldə edilən qələbə və kitabın ərsəyə gəlməsinə həsr edilən videoçarx nümayiş etdirilib.

Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızı kitabla bağlı təəssüratlarını bölüşərək bildirib ki, cənab Prezident İlham Əliyev xalqına hansı vədi veribsə, onu sona kimi yerinə yetirib. Odur ki, gənclər də cənab Prezidentin dediyi hər sözə inanmalı və hər zaman ona dəstək olmalıdırlar.

Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Elmin İmanov Azərbaycan tarixində konkret bir tarixi hadisə haqqında yazılan kitabın 7 dildə nəşr edilməsinin ilk dəfə olduğunu deyib. Onun xüsusi əhəmiyyəti isə hadisələrin məhz iştirakçıların dilindən nəql edilməsidir. Kitabda Şanlı Qələbənin əldə olunmasının ölkə başçısı İlham Əliyevin müdrik sərkərdəlik qabiliyyəti sayəsində mümkün olduğu xüsusi vurğulanıb.

Gənclərin müzakirəsinə çıxarılan kitab nəinki ölkəmizdə, eyni zamanda ölkə xaricində oxucu və ekspertlərin böyük marağına səbəb olduğundan Azərbaycan, türk, ingilis, rus, ərəb, fars və Çin dillərində nəşr edilib. Hazırda kitabın urdu dilində tərcüməsi üzərində işlər davam edir.

Tədbirdə çıxış edən "Regional İnkişaf" İctimai Birliyin nümayəndəsi Murad Qasımlı, Vətən müharibəsi qazisi Qadir Daşdəmirov, çinli tələbə Zhikai Cao və başqaları bildiriblər ki, kitabda Azərbaycanın Birinci Qarabağ müharibəsində məğlubiyyətinin səbəbləri və ölkənin öz torpaqlarını işğaldan azad etmək istiqamətində həyata keçirdiyi əməliyyatların geniş təhlili verilib. Kitabda Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mədəni-tarixi irsin bərpası istiqamətində aparılan genişmiqyaslı işlər oxucunun diqqətinə çatdırılır.

Gənclərin böyük marağına səbəb olan tədbirin sonunda bədii hissə təqdim edilib.

**"Respublika".**